# Zəngəzur dəhlizi Avrasiya məkanı üçün mühüm əhəmiyyətə malikdir

## Ölkəmizin nəqliyyat və logistika mərkəzi kimi mövqeyi möhkəmlənir

*Şanlı qələbədən sonra Avrasiyanın geoiqtisadi xəritəsində ölkəmizin yaratdığı yeni imkanlar beynəlxalq nəqliyyat sisteminin bütövlükdə yenidən formalaşdırılması reallığını yaradıb. Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi region ölkələri arasında iqtisadi əlaqələrin şaxələndirilməsinə, o cümlədən istehsalçı, istehlakçı və tranzit ölkələr arasında ticarət əlaqələrinin diversifikasiyasına xidmət edəcək. Regional əməkdaşlıq və region ölkələri arasında iqtisadi təhlükəsizliyin artırılması fonunda Zəngəzur dəhlizi mühüm əhəmiyyət kəsb edir.*

İkinci Qarabağ müharibəsində əldə edilmiş böyük Zəfərdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən torpaqlarımızda reallaşdırılan yeni layihələr Azərbaycanın geosiyasi və geoiqtisadi imkanlarının getdikcə daha da yüksəlməsini şərtləndirir. Bu baxımdan, Zəngəzur dəhlizinin həm bölgə, həm də ümumilikdə Avrasiya arealı üçün böyük əhəmiyyət daşıması danılmaz faktdır. Ona görə də Mərkəzi Asiya ölkələrinin yeni bazarlara çıxışında Zəngəzur dəhlizinin iqtisadi önəmi xüsusilə nəzərdən keçirilir. Analitiklərin qənaətinə görə, dünya iqtisadiyyatının əsas lokomotivlərindən biri sayılan Çindən gələn yüklərin Mərkəzi Asiya marşrutu ilə daşınması potensialı və Süveyş kanalından keçən dəniz nəqliyyat yoluna alternativ nəqliyyat dəhlizinin formalaşdırılması Azərbaycanın, eləcə də Zəngəzur dəhlizinin vacib nəqliyyat arteriyasına çevrilməsinə şərait yaradır. Hazırda Zəngəzur dəhlizinin bir parçası olacaq həm dəmir yolunun, həm də avtomobil yolunun inşasına dair işlər sürətlə reallaşdırılmaqdadır. Kommunikasiyaların bərpası istiqamətində işlər davam edir.

Tarixi Azərbaycan ərazisi olan Zəngəzurdan keçəcək kommunikasiyalar bölgənin tranzit xəritəsinə mühüm yeniliklər gətirəcək. Zəngəzur dəhlizinin istifadəyə verilməsi, eyni zamanda, Azərbaycanı regionun nəqliyyat qovşaqlarının mərkəzinə çevirəcək, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Tarixi torpaqlarımızdan keçəcək dəhlizə Qarabağ regionu daxilində magistral avtomobil yollarının birləşdirilməsi aparılan işlərin kompleks həyata keçirilməsindən xəbər verir. Özbəkistan və Türkmənistan prezidentləri səviyyəsində Cənubi Asiya və Cənubi Qafqazın nəqliyyat-logistika imkanlarının müzakirəsi deməyə əsas verir ki, Mərkəzi Asiya ölkələrinin yeni nəqliyyat dəhlizlərindən, o cümlədən Azərbaycanın tranzit imkanlarından istifadədə marağı böyükdür. Zəngəzur dəhlizi ilə bağlı qeyd olunması vacib olan digər məqamlardan biri də Aşqabad müqaviləsinin ölkələrin Avropaya reinteqrasiyası üçün yeni perspektivlər yaratmasıdır. Qeyd edək ki, Aşqabad müqaviləsi Türkmənistan, Özbəkistan, Qazaxıstan, İran, Oman, Hindistan və Pakistan arasında Avrasiya regionunda nəqliyyat əlaqələrinin inkişafı və digər nəqliyyat dəhlizləri ilə birgə fəaliyyətin təmin edilməsi məqsədilə imzalanıb. Bu ölkələr vasitəsilə həyata keçirilən beynəlxalq yükdaşımaların Zəngəzur dəhlizindən Avrasiya bazarlarına çatdırılması Qarabağ regionunun iqtisadi potensialının artırılmasında xüsusi rol oynaya bilər.

Prezident İlham Əliyev təkcə Azərbaycanın və azərbaycanlıların deyil, bütün türk dünyasının taleyini dəyişməyə müyəssər olmuş müdrik liderdir. Türk birliyi məhz onun təşəbbüsləri ilə sırf praqmatik maraqlar üzərində qurulmuş ideyaya çevrilir və Avrasiyanın mühüm hissəsinin yeni logistik və iqtisadi əsaslarda birləşməsini nəzərdə tutur. Süveyş kanalı ilə bağlı yaşananlar isə Zəngəzur dəhlizinin dünya üçün əhəmiyyətini bir daha qabarıq şəkildə üzə çıxardı. Türkiyə-Azərbaycan üçün, o cümlədən bütövlükdə Qafqazın sülh və inkişaf bölgəsinə çevrilməsi ilə bağlı inteqrasiya layihələri olduqca perspektivlidir. Ona görə də bu layihələrin reallaşdırılması üçün mütləq şəkildə dayanıqlı kommunikasiya əlaqələri olmalıdır. Bu istiqamətdə ən mühüm addımlardan biri məhz Naxçıvana quru dəhlizinin açılmasıdır ki, bu da faktiki olaraq Azərbaycanla həm Rusiya, həm Türkiyə, həm də İran arasında iqtisadi əlaqələrin inkişafına çox ciddi stimul olacaq. Eyni zamanda, bu, Azərbaycan üzərindən Rusiya ilə İran əlaqələrinin açılması deməkdir və bütövlükdə bölgənin iqtisadi inkişafına, real sektorun istehsal proseslərinin intensiv şəkildə inkişaf etdirilməsinə xidmət edən bir məsələdir. Qərb və Şərq arasındakı ticarət əlaqələrindən və nəqliyyat xətlərindən əlavə olaraq, Şimal və Cənub koridoru üçün də Zəngəzur dəhlizi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan və İran arasında realizə edilən Rəşt-Astara dəmir yolu xətti layihəsi Xəzər dənizi sahili boyunca Şimal-Cənub koridoru olaraq da tanınan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin bir hissəsidir. Belə ki, bu dəmir yolu nəqliyyat xəttinin birləşdirilməsi Şimal-Cənub dəhlizi üzrə ticarət dövriyyəsinin artmasına gətirib çıxaracaq. Azərbaycanla İran arasında qonşu ölkənin ərazisindən keçməklə, Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan MR arasında kommunikasiya bağlantılarının yaradılması haqqında imzalanan anlaşma memorandumuna əsasən, yeni dəhlizin inşasına başlanılacaq. Ermənistan sərhədi ilə 5 kilometr məsafədən keçəcək sözügedən yolboyunca avtomobil və dəmiryolu, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılması nəzərdə tutulur.

Zəngəzur dəhlizinin qitələrarası əhəmiyyəti isə Çinin son illərdə artan iqtisadi nəqliyyat şəbəkəsinə yeni bir alternativlik təşkil etməsidir. Bu alternativlik Çindən gələn malların Türkiyənin şərq vilayətlərinə, oradan da Aralıq dənizi və ya İstanbul boğazları vasitəsilə Avropaya daşınmasını təklif edir. Əslində, bu yenilik həm Türkiyənin, həm də Çinin nəqliyyat yollarının diversifikasiya edilməsi strategiyalarına da uyğundur. Beləliklə də, yaxın gələcəkdə Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya edilməsi fonunda Zəngəzur dəhlizi Avropa və Asiya qitələri arasında önəmli ticarət marşrutu kimi çıxış edəcək. Çinin müxtəlif KİV orqanları, siyasətçiləri, analitikləri, iş adamları "Bir kəmər, bir yol" layihəsi çərçivəsində həmişə "Orta yol" adlandırdıqları nəqliyyat dəhlizinə ciddi önəm verir və həmin kontekstdə son zamanlar Zəngəzur dəhlizini mütləq vurğulayırlar. Bu dəhliz Azərbaycan, Ermənistan, Türkiyə, Rusiya və İranla yanaşı, Asiya-Sakit okean regionu ölkələrinə də böyük fayda verə bilər. Zəngəzur dəhlizinin əhəmiyyətinə xüsusilə böyük önəm verən Prezident İlham Əliyev bildirib ki, bu dəhliz Azərbaycanın Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini möhkəmləndirməsinə imkan verəcəkdir. Ölkə başçısı Asiya-Sakit okean bölgəsindəki tərəfdaş ölkələri də bu regional layihənin potensialını nəzərdən keçirməyə dəvət etmişdir. Şərqi Zəngəzurda yerləşən Zəngilanın qədim torpağımız olan Qərbi Zəngəzurla, daha sonra Ordubad vasitəsilə Naxçıvan və Türkiyə ilə əlaqəsi növbəti tarixi nailiyyətimiz olacaqdır. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında fəal iştirak edir, birbaşa inkişafına maliyyə dəstəyi verir, bu nəqliyyat dəhlizlərinin regional hissəsinin gücləndirilməsində aktiv rol oynayır.

"Zəngəzur dəhlizi artıq reallıqdır. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda, beynəlxalq yükdaşımaları üçün yeni bir yol olacaq, beynəlxalq bir yol olacaq. Ona görə və eyni zamanda, keçmiş məcburi köçkünlərin rahatlığı üçün biz dörd və altı zolaqdan ibarət olan avtomobil yolunu sürətlə inşa edirik. Bu yolun hissə-hissə istifadəyə verilməsi gələn ildən başlayacaq". Bu fikirləri Prezident İlham Əliyev Vahid Hacıyevi Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bildirib. Horadizdən Zəngilana dörd və altızolaqlı magistral avtomobil yolunun çəkildiyini qeyd edən dövlətimizin başçısı deyib ki, bu yol tam yeni və daha əlverişli marşrutla keçir. Həm vətəndaşlar bu yolla rahat gedib-gələcəklər, həm də beynəlxalq yükdaşıma məsələləri öz həllini tapacaq.



**Mustafa KAMAL,**
**"Respublika".**